◆ Həsrət Əli

## Bir Çiçək Eşqi

Dünyaya səpilib həsrət toxumu,
Hər yerdən göyərir həsrətin əli.
Ilahi, gördüyüm qorxunc yuxumu,
Vüqarlı dağların bükülüb beli.

Göylər ətəyini çəkib dərinə,
Bəlkə də həsrətin əlindən çəkir.
Göylərdən yerlərə ümid yerinə,
Həsrətli-həsrətli duman, çən çökür.

Yaman qarışıbdı toyu vayına,
Vüsalı göz yaşlı nağıldı dünya.
Yetişmir nalələr, ahlar hayına,
Bir də görəcəksən dağıldı dünya.

Buludlar qoynunda haraysan, haysan,
Silkələ üstünə həsrət yağacaq.
Iki həsrətlini baş-başa qoysan,
Göylərə yüksələn alov doğacaq.

Həsrət bolluğudur *Həsrət* adım da,
Adamın içində üşüyür səsi.
Bir kəpənək ömrü yaşamağım da,
Bir çiçək eşqidi, bir yaz həvəsi.